lexical, grammatical and stylistic equivalence, it is necessary to pay special attention to the use of translation transformations.

***Rəyçi: dos. Aygün Talıbova***
***Qrammatika və ingilis dilinin tədrisi kafedrasının 21 sentyabr 2022-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olduğu tarix 12 oktyabr 2022-ci il***

**UOT:82-1.152.162.**

# SÜLEYMAN RÜSTƏMİN YARADICILIĞINDA CƏNUB MÖVZUSU

***f.ü.f.d. Bünyadova Vəfa Şahzadə qızı***
***Azərbaycan Memarlıq və Inşaat Universiteti***

**Xülasə:***Süleyman Rüstəmin yaradıcılığı nəinki XX əsr Azərbaycan poeziyasında, həmçinin nəsrində mühüm bir mərhələni təşkil edir. Şair digərləri ilə birlikdə yeni Azərbaycan poeziyasını yaradanlardan biri olmuşdur. Süleyman Rüstəm eyni zamanda Azərbaycan ədəbiyyatının klassiklərinin ən yaxşı ənənələrini davam və inkişaf etdirmişdir. Şair XX əsrin əvvəllərində ədəbiyyata gəlmişdi. XX əsrin 30-cu illərində Süleyman Rüstəmin yaradıcılığında inqilabi mövzularla yanaşı, vətənpərvərlik, xüsusilə də cənub mövzuları yer almağa başlayır. 1941-ci ildə Sovet Ordusunun tərkibində İrana səfər edir. Təbriz, Tehran şəhərlərində və bir çox vilayətlərində olur. Cənubi Azərbaycan əhalisinin vəziyyəti ilə yaxından tanış olur. Cənublu soydaşlarımızın çoxsaylı problemlərinə həsr olunmuş çoxlu şeirlər, poemalar yazır. Ancaq "Təbrizim" şeiri S.Rüstəmin cənub lirikasının zirvəsidir. Şair Təbriz sakinlərinə müraciətdə onlar özünün doğma bacı və qardaşları adlandırır. Məqalədə yuxarıda göstərilən məqamlar təhlilə cəlb olunmuşdur.*

**Açar sözlər:** Süleyman Rüstəm, cənub, mövzu, yaradıcılıq, şeir.
**Ключевые слова:** Сулейман Рустам, южная, тематика, творчество, стихотворение.
**Keywords**: Suleyman Rustam, south, subject, creativity, poetry, poems,

Süleyman Rüstəm XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Yaradıcılığının ilk illərindən başlayaraq Süleyman Rüstəmin yaradıcılığında vətənpərvərlik motivləri əhəmiyyətli yer tutur. Süleyman Rüstəm mübariz əhval-ruhiyyəli və sözün yaxşı mənasında pafoslu şair olmuşdur. Şair təxminən 60 il ərzində doğma Bakının, Xəzərin sahillərini, Qarabağı təsvir və tərənnüm etmişdir. Fikrimizcə, Süleyman Rüstəm "Mənim fəlsəfəm" şeirində yaradıcılıq kredosunu müəyyənləşdirmişdir.

Düyünlü sözlərdən heç gəlməz xoşum,
Aydın həqiqətdir mənim fəlsəfəm.
Vətənə, millətə, qardaş ellərə
Dərin məhəbbətdir mənim fəlsəfəm.

Dumanlı arzular, xam xəyal deyil,
Şan-şöhrət uğrunda qalmaqal deyil;
Fitnə-əsad deyil, puç amal deyil,
Haqdır, ədalətdir mənim fəlsəfəm (8, s.17).

Şair Azərbaycanın Xəzərdən Qarabağa, Dərbənddən Təbrizə qədər olan füsünkar mənzərələrini, təbiətini, ən başlıcası isə fədakar, igid, cəsur, əməksevər insanlarını tərənnüm etmişdir. Süleyman Rüstəmin vətənpərvərlik lirikasının mühüm bir hissəsini onun cənub mövzusunda yazdığı şeirlər təşkil edir. Cənub mövzusu Süleyman Rüstəmin əbədi olaraq gənclik

illərindən ömrünün sonuna qədər "müşaiyət etmişdir", poeziyanın keşməkeşli yollarında onunla yanaşı, qoşa addımlamışdır. Cənub mövzusu Azərbaycan ədəbiyyatında həmişə aktual olaraq qalmışdır. XX əsr Azərbaycan poeziyasında Balaş Azəroğlu, Əli Tudə, Söhrab Tahir, Mədinə Gülgün, Hökümə Bülluri, Xəlil Rza Ulutürk cənub mövzusuna müraciət etmiş, sanballı poetik nümunələr yaratmışlar. Ancaq mübaliğəsiz söyləmək olar ki, Azərbaycan poeziyasında cənub mövzusunun zirvəsi Süleyman Rüstəmin yaradıcılığıdır. Süleyman Rüstəm 1941-ci ildə Sovet ordusunun tərkibində Cənubi Azərbaycana getmiş, Təbriz, Tehran şəhərlərində və digər yerlərdə olmuş, cənublu soydaşlarımızın çoxsaylı problemləri ilə maraqlanmış və nicat yolunun azadlıq mübarizəsində olduğunu dəfələrlə vurğulamışdır. Süleyman Rüstəm "Təbrizim", "Dilimə dəymə", "Anam dilli qardaşım", "Yad gül dərə bilməz", "Təbrizli analar" və digər şeirlərində Təbrizin qəhrəmanlıq tarixindən bəhs etmiş, onları Sattar Xanın, Bağır Xanın yolunu davam etdirməyə çağırmışdır.

Nə qəşəndir yol boyunca söyüdlər,
Söyüdlərin o kölgəsində igidlər
Babalardan dinləyirlər öyüdlər,
Cəsur damarlarda qanı Təbrizim,
Yoxdur bu mərdlərin qanı, Təbrizim! (8, s.18).

Süleyman Rüstəm vətənpərvərlik mövzusunda yazdığı şeirləri ən böyük Azərbaycanlı olduğunu sübut etmişdir. Vətənpərvərlik ideyalarının təbliğ edilməsi isə həmişə aktuallıq kəsb edir. Bu mənada Süleyman Rüstəm dünənin, bu günün və gələcəyin şairi olaraq Azərbaycan ədəbiyyatı tarixində qalacaqdır. "Süleyman Rüstəmin şeirlərini, başqa əsərlərini oxuyanda, dinləyəndə hər dəfə heyran olursan, bu adamın təsvir ustalığı nə qədər yüksəkdir, dili nə qədər zəngindir. Bunu hər kəs edə bilməz və hər kəsə verilmir. Süleyman Rüstəmin yaradıcılığından vətənpərvərlik, Vətənə, millətə, xalqa sədaqət hissi keçir. Bu gün müstəqil Azərbaycan Respublikasında fəxr hissi ilə deyirik ki, bizim dövlət dilimiz gözəl ana dilimiz Azərbaycan dilimiz var və bu, müstəqilliyimizin rəmzidir. Yazıçılarımız, şairlərimiz, mədəniyyət xadimlərimiz dilimizi əbədiləşdirib, zənginləşdirib, gözəlləşdiriblər." (6, s.50). Süleyman Rüstəmin cənub lirikasında mübarizə, üsyankarlıq motivləri üstunlük təşkil edir. Bu da təsadüfi deyildir. Şairin "zəncirləri qırmaq, o böyük haqq yolu tapmaq, üsyanlardır, üsyanlardır" sözlərini bütün cənub lirikasının mübarizlik, azadlıq iradəsi, simvolu kimi götürmək olar. "Mücahidlərin mahnısı" şeirində Süleyman Rüstəm azadlıq uğrunda mübarizə yolundan dönməməyə çağırır.

Biz gedirik azadlıqçün döyüşə,
Sinələri dağlamayın, analar!
Şəhid olsaq yaşarmasın gözünüz,
Başa qara bağlamayın, analar!
Bir vaxt deyib-gülənlərin yasını,
Düşmən bağrı dələnlərin yasını,
Bu günlərçün ölənlərin yasını
Uzun illər saxlamayın, analar!
Unudulmaz azadlıqçün ölənlər,
Bizi anar bizdən sonra gələnlər
Bizim kimi el qədrini bilənlər,
Ağlamayın, ağlamayın, analar! (8, s. 11)

Süleyman Rüstəmin "Mücahidlərin mahnısı" şeiri müdrikliyi, aktuallığı və nə qədər qəribə səsələnsə də uzaqgörənliyi ilə seçilir. Şeir Süleyman Rüstəmin 1941-ci il Sovet Ordusu ilə birlikdə Təbrizdə olan zaman yazılmışdır və mücahidlərin Vətən, xalq, millət, azadlıq uğrunda mübarizəsindən bəhs edir. Həm də şeir mücahid analarına müraciətlə yazılmışdır. Qəhrəman,

mərd oğullar böyütdüklərinə görə... Analar azadlıq uğrunda döyüşə gedənlərin arxasınca ağlamamlıdırlar, fəxr etməlidirlər. Analar üçün övlad dünyada hər şeydən əzizdir, müqəddəsdir. Mücahidlər bilirdilər ki, azadlıq yolunda ayrılıq var, itki var, olüm var. Analar başlarını dik tutmalıdırlar, başa qara bağlamamalıdırlar. Süleyman Rüstəm kiçik bir şeirdə tarixi keçmişə qısaca da olsa ekskurs edir, mücahidlərin xoşbəxt, qayğıkeş uşaqlıq illərinə səyahət edir, onların böyük arzularla yaşadıqlarını bildirir. Şair əminliklə vurğulayır ki, əgər mücahidlər bu yolda həlak olsalar, şəhidlik zirvəsinə ucalsalar onların qanı yerdə qalmayacaqdır. Gələcək nəsillər onların haqq işini davam etdirəcək, azadlıq bayrağını daha yüksəkliklərə ucaldacaqlar. Digər tərəfdən Süleyman Rüstəm mücahidlər deyəndə bugünkü Qarabağ şəhidlərini nəzərdə tutmuşdur. Əgər biz şeirin yazıldığı dövrü nəzərə almasaq, bizim üçün nisbətən naməlum olan mətnə müraciət etsək, şeirin müasir dövrdəki şəhidlərimiz, qəhrəmanlarımız, müqəddəs analarımız üçün yazıldığı tam şəkildə aydın olar. Şair, sənətkar uzaqgörənliyi məhz burada özünü göstərir.

Süleyman Rüstəm həmişə Azərbaycan qadınlarını, analarını böyük məhəbbətlə tərənnüm etmişdir. "Təbrizli analar" şeirində Süleyman Rüstəm ümumən analara monumental abidə ucaltmışdır:

Mən təbrizli analara bələdəm,
Fəxrimdir bu əziz, qoçaq analar.
Körpəsinin beşiyinin başında,
Sübhə qədər qalar oyaq analar.
Məhəbbəti çiçəklənər ilk gündən,
Zərrə bezməz öz analıq yükündən.
Balasına namərdliyi kökündən
Saf südüylə edər yasaq, analar.
Hər kəlməsi, hər sözü gül qoxuyar,
Laylasını diləklərdən toxuyar.
Ürəklərdən keçənləri oxuyar
Kitab kimi varaq-varaq, analar (8, s. 12).

Təbrizin qəhrəmanlıqlarla zəngin olan mübarizə tarixi çox qədimdir. Təbrizlilər, Təbriz anaları, qadınları zaman-zaman işğalçılara inadlı müqavimət göstərmiş döğma torpağı, müstəqilliyi, istiqlaliyyəti qorumuşlar. Ona görə də təbrizli analar hər cür alqışa, tərifə layiqdirlər. Şair təbrizli anaları yaxından yanıyır, onlarla fəxr edir. Səttərxan, Bağırxan, Şeyx Məhəmməd Xiyabani kimi oğulları, mərd mücahidləri tərbiyə edən məhz həmin qadınlardır. Körpələrinin beşiyi başında sübhə qədər oyaq qalırlar, keşik çəkirlər. Analar övladlarına böyük məhəbbət bəsləyirlər. Səhərə qədər keşik çəkməyi əzab yox, analıq vəzifəsi, nemət hesab edirlər. Ən başlıcası isə Məhəmməd Hüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasında vurğulandığı kimi "mərd oğulıar doğurlar", dünyaya gətirirlər. Təbrizli analar ana südüylə birlikdə övladlarına "namərdliyi kökündən qadağan edirlər". Anaların hər kəlməsi, hər sözü gül qoxuyar və laylalarında Vətən, millət, xalq haqqında gələcək arzularını ifadə edirlər. Analar özləri də nə vaxtsa nağıllar, dastanlar, laylalar vasitəsi ilə tərbiyə olunmuşlar. Ürəklərdən keçənləri duymaq qabiliyyətinə malikdirlər. Əsrlərin, qərinələrin canlı şahidləridirlər, kitablar kimi varaqlana bilirlər. Yəni, keçmişdə baş verənləri gələcək nəsillərə çatdırırlar. Bir sözlə, analar Süleyman Rüstəm tərəfindən ideal şəkildə tərənnüm olunmuşlar. Bizim analar övladlarının hər bir hərəkətlərinə cavabdehdirlər.

Xata çıxsa övladının əlindən.
İnsanlara ziyan dəysə dilindən,
Üz döndərsə vətənindən, elindən
Kandarına basmaz ayaq, analar.

Ta əzəldən dar günündə ellərin,
Qarşısına sinə gərər sellərin.
Nəfəsini kəsər qara yellərin,
Dayaqlara olar dayaq, analar.
Qan axarkən Təbrizdə su yerinə,
Döyüşlərdə ürək verər ərinə.
Nalə çəkib, şəhidlərin qəbrinə
Güllər səpər qucaq-qucaq, analar! (8, s. 12).

Təbrizli analar mərddirlər, həqiqətpərəstdirlər, vicdanlıdırlar. Həqiqət naminə, hətta, öz doğma övladlarına belə güzəştə getmirlər.

Süleyman Rüstəm 1941-ci ildə Sovet Ordusunun tərkibində Cənubi Azərbaycana-İrana səfər etmiş, bir çox şəhərlərdə, kəndlərdə, o cümlədən dəfələrlə Təbrizdə, Tehranda olmuşdur. Müxtəlif təbəqələri, nəsilləri təmsil edən insanlarla görüşmüş, onların dərdlərinə şərik olmuşdur.Şairi xüsusilə də Cənubi Azərbaycanda yaşayan, “dili bir, qani bir olan qardaşlarımızın, soydaşlarımızının” çoxsaylı problemləri problemləri narahat ediridi. Şah rejimi 30 milyonluq xalqı ana dilində danışmaqdan, yazmaqdan məhrum etmişdi. “Dilimə dəymə” şeirində Süleyman Rüstəm bütün bunları bariz şəkildə təcəssüm etdirmişdir.

Mən, sənin dilinə dəymirəm, cəllad,
Gəl sən də bu ana dilimə dəymə!
Sənin də bağın var, gülün var, çəkin,
Bağımda əkdiyim gülümə dəymə!
Həsədlərlə baxdım çəmənimə sən,
Gör bir nələr etdin vətənimə sən.
Yan deyib, od vurdun bədənimə sən!
Altında atəş var, külümə dəymə!
Mən ağa ağ dedim, qaraya qara,
Sən məni istədin çəkəsən dara.
Yenicə sağalır vurduğun yara,
Mənim bu yaralı könlümə dəymə! (8, s. 8).

Süleyman Rüstəmin qənaətinə görə millətin, xalqın dilinə, mədəniyyətinə, keçmişinə toxunmaq ən böyük cinayətdir. Təsadüfi deyildir ki, insanlar Vətənə, torpağa, dilə və təbiətə “ana”deyə müraciət edirlər. Ana isə müqəddəs varlıqdır. Doğurdan da dili müdafiə edən, yaşadan insan keçmişini, bügününü, gələcəyini qoruyur, müdafiə edir. Şair doğru olaraq vurğulayır ki, dilə toxunan, onun inkişafına mane olan sözün həqiqi mənasında cəlladdır, qanicəndir, ancaq insan deyildir. Şimalda car, cənubda isə şah cəlladları həmişə Azərbaycan dilinin inkişafına mane olmuşdular. Hər iki rejim əsrlər boyu müstəmləkiçilik siyasəti yeritmiş, Azərbaycan xalqına, dilinə qarşı münasibətdə “vahid” cəbhədən çıxış etmişdilər. Süleyman Rüstəm şeirdə bütöv Azərbaycan xalqını təmsil edir, xalqın adından danışmağı özünün börcu, müqəddəs vəzifəsi hesab edir. Çünki Azərbaycan xalqı başqa millətlərin dilinə, dininə, adət-ənənəsinə hörmətli yanaşmışdır və həmin ənənə bu gün də dövlətimiz tərəfindən davam etdirilir. Şair Azərbaycan dilinin düşmənlərinə xəbərdarlıq etməkdən çəkinmir. Başqa millətlərin “bağı, gölü” kifayət qədərdir. Ona görə də “bağında” əkdiyi güllərə toxnmağı qəbul edə bilmir. Şairin qənaətinə görə dünyada yaşayan xalqlar, millətlər öz dilləri, dinləri, bağları, gölləri ilə kifayətlənməli, özgələrin maddi və mənəvi sərvətlərinə göz dikməkdən əl çəkməlidirlər. Onda yəqin ki, millətlər arasında nifaq toxumu səpilməz, mənasız müharibələrə son qoyulardı. Ancaq təəssüflər olsun ki, bəşəriyyət şairin arzularından, istəklərindən çox uzaqdır. Yer üzünü paxıllıq, həsəd, işğalçılıq kimi mənəvi xəstəliklər bürümüşdür. Düşmən təkcə şairin ana dilinə dəyməklə kifayətlənmir. Çəməninə

həsrətlə baxır. Bununla da kifayətlənməyərək Vətəninə nələrsə etməkdən çəkinmir. Vətən övladlarının cavabı özünü çox gözlətmədi. Nə vaxtsa işğalçılara qarşı üsyan, müqavimət hissi alovlanacaqdı. Vətən torpağı işğalçıların, cəlladların ayağı altında od tutub yanacaqdır. Atəş sonda dönüb kül olsa belə... Şair düzü, doğrunu söyləməkdən çəkinməyəcəkdir. Çəksələr də min dara...

Mən ağa ağ dedim, qaraya qara,
Sən məni istədin çəkəsən dara,
Yenicə sağalır vurduğun yara,
Mənim bu yaralı könlümə dəymə!!! (8, s. 8).

Eyni motivlər “Anam dilli qardaşım” şeirində də səsləndirilmişdir:

Dinlə qan qardaşını, qabar əlli qardaşım
Mən sözlü, mən arzulu, mən könüllü qardaşım,
Görürəm ki, qanından rəng alıbdır dan yeri,
Dərdli, qəmli kamanı ürək telli qardaşım.
Azadlıq günəşindən can gəlsin torpağına,
Təbrizli, savalanlı, ərdəbilli qardaşım.
Uzun illər kilidli dilin açıldı artıq,
Doğma anam laylalı, anam dilli qardaşım! (8, s. 8).

Süleyman Rüstəm Cənublu qardaşlarını, bacılarını bir ananın iki müxtəlif ölkələrdə yaşayan övladları hesab edirdi.Ona görə də müraciətini qabar əlli qan qardaşlarına ünvanlayır. Cəmubli qardaşlar təkcə siyasi hüquqlardan məhrum edilməmişdilər. Həm də iqtisadi çətinliklər məngənəsində boğulurdular. Eyni zamanda bir-iki problemlə yox, çoxsaylı problemlərlə qarşılaşmışdılar. Ona görə də min sözlü, min arzulu, min könüllü olmaları təsadüfi deyildir. Azadlıq, müstəqillik yolunda çoxlu qanlar tökmüşlər. Ancaq arzularını qopara bilməmişlər. Əks-təqdirdə axan qanlarından dan yeri rəngini dəyişib qıpqırmızı rəngə boyanmazdı. Hadisələr təkcə qanla yekunlaşmamışdır. Telli ürəyinin kamanı dərddən, qəmdən zinhara gəlmişdir. Təbrizli, Savalanlı, Ərdəbilli qardaşlar mübarizəni dayandırmayacaqlarına əmindirlər. Şair obrazlı şəkildə vurğulayır ki, məhz “azadlıq günəşindən” bağrı qan olan Vətən toprpağına müstəqillik toxumları səpiləcəkdir. Azadlıq ideyalarının bəhrəsini görən xalqı məğlub etmək çətindir. Əsrlərin, qərinələrin tilsimi sındırılmış, doğma ana laylasını dinləyən Vətənin oğul və qızları ananın “əsirlikdə qalmasını” qətiyyən qəbul edə bilməzlər....

Süleyman Rüstəmin “Yad gül dərə bilməz” şeiri də Vətən övladlarına xitabən yazılmışdır.

Yad gül dərə bilməz çəmənimdən,
Heç qüvvə ayırmaz məni bir an
Öz doğma elimdən, Vətənimdən.
Hər yerdə günəşdir mənə bayraq
Baş əymərəm aləm yağı olsa,
Qan axsa da sel tək bədənimdən.
Ölsəm qalacaqdır əməlim sağ,
Düşmən mənə əl vursa, əminəm,
Atəş açılacaqdır kəfənimdən.
Heç qüvvə ayırmaz məni bir an
Öz doğma elimdən, Vətənimdən (8, s.9).

Süleyman Rüstəmin lirikasından yadlara xüsusi münasibət, nifrət, kin, qəzəb vardır. Vətənin çəməni şairin qənaətinə görə Vətən övladlarına məxsus olmalıdır. Heç bir vəchlə yadlara Vətənin gülzarından gül dərməyə imkan verilməməlidir. Şair Vətəninin hər qarış torpağının, gülünün, çiçəyinin qədrini biləndir. Ən başlıcası isə heç bir qüvvə onu doğma elindən ayıra bilməz. Güc birlikdədir. “El gücü, sel gücü” demişdir ata-babalar. Müstəqillik, azadlıq bayrağı

günəşə bənzədilir, müqayisə olunur. Günəş yerdən miylon kilometrlərlə uzaq məsafədə yerləşməsinə baxmayaraq hər tərəfi işıqlandırmaq gücünə, qabiliyyətinə malikdir. Bayraq da ətraf yerlərdən görünür, xalqı ruhlandırır, mübarizəyə səsləyir. Həm də mübarizə son nəfər qalana qədər aparılacaq, davam etdiriləcəkdir. Bütün dünya yağılardan, düşmənlərdən ibarət olsa belə... Bədənindən sel kimi axan qan da şairi haqq yolundan döndərə bilmir. Bu yolda ölümün, itimin olması şəksizdir, şübhəsizdir. Təki qəhrəmanın əməlləri yaşasın. Ölüm belə insanları azadlığa, mübarizəyə səsləyir. Qisas almaq hissi qəhrəmanları heç vaxt tərk etməyəcəkdir. Qəhrəmanın özü vaxtsız həlak olarsa, kəfənlər düşmənə tərəf atəş yağdıracaqlar. Süleyman Rüstəmin lirikasında göydə uçan durnalar azadlığın simvolu kimi təsvir olunmuşlar.  Əsrlər boyu insanlar durnaların yolunu kəsə bilməmişdilər. İmkanları, əlacları olsaydı göyə hasar çəkərdilər. Azərbaycan ədəbiyyatında Aşıq Alı, Aşıq Ələsgər, Qasım bəy Zakir, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Səməd Vurğun və başqaları durnalara çoxlu şeirlər həsr etmişlər. Şeirlərin hamısını birləşdirən həsrət motividir. Süleyman Rüstəm isə şeirlərə cənub həsrətini, dərdlərini əlavə etmişdir.

Durnalar, siz deyin, qan qardaşlarımız
Gəlib dərd əlindən zara, deyilmi?
Odlar torpağının ürək parçası
Arazın o tayı, ora deyilmi?
İnsanlar göz açmır əlindən yasın,
Gülləri qaradır baharın, yazın.
Qoca ər evinə satılan qızın,
Örtüyü günütək qara deyilmi?
Süleyman, bağlısan o doğma yerə,
Vətənim deyirsən gündə min kərə.
Təbriz gözəlindən sənə xatirə,
Bağrında sızlayan yara deyilmi?! (8, s.14)

Süleyman Rüstəm sonrakı illərdə cənub mövzusunda “Oralıyam mən”, “Araz deyir”, “Nigaranam”, “Ağladı, “Könül mahnısı”, “Üçümüz”, “Çörəyim, ağla”, “Ürəyimi verərəm”, “Dinlə qardaşım”, “Təbriz zindanında”, “Vətən yandı”, “Qardaşımın dərdi”, “Yenə durnalar” və digər şeirləri cənublu bacı-qardaşlarımıza həsr etmişdir. Başqa sözlə desək, cənub mövzusu Süleyman Rüstəmin əbədi yol yoldaşına çevrilmişdir. Şair ömrünün son günlərinə qədər cənub mövzusunda yazıb yaratmışdır. Şübhəsiz ki, Süleyman Rüstəmin cənub mövzusunun zirvəsi onun yaradıcılığının ilk illərində yazdığı “Təbrizim” şeiridir. Fikrimizcə “Təbrizim” şeiri təkcə Süleyman Rüstəm yaradıcılığında deyil, ümumən Azərbaycan poeziyasında cənub mövzusunun zirvəsindədir. “Təbrizim” şeirimdə Süleyman Rüstəmin cənublu  soydaşlarımız haqqında arzuları, istəkləri, ən başlıcası isə gələcəklə bağlı planları öz əksini tapmışdır. Şairin Təbrizin gözəlliyindən doymur ki, doymur...

Baxdıqca hüsnünə döymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim!

Süleyman Rüstəm Təbrizin füsünkar, ecazkar gözəlliklərini vəsf edəndən sonra arzulara, hətta iradlara, yaxşı mənada danlaqlara, ərklərə keçir.

Qoymaram yadları girsin qoynuna,
İzin ver qolumu salım boynuna!
Sənin bayramına, sənin toyuna
Dili bir, qanı bir qardaşın gəlib,
Dərdinə aşina sirdaşın gəlib.
Sən çıxdın qarşıma duzla, çörəklə,
Bağından dərdiyin güllə, çiçəklə,

İkiyə bölünməz saf bir ürəklə,
Təbrizim, Təbrizim, aman Təbrizim,
Yox olsun başından duman, Təbrizim! (8, s.7)

Əlbəttə, XX əsrdə Azərbaycan şairlərindən Söhrab Tahir, Mədinə Gülgün, Hökümə Bülluri, Balaş Azəroğlu, Xəlil Rza Ulutürk, Əli Tudə və başqaları da cənub mövuzusunda çoxlu şeirlər, poemalar yazmışlar. Yuxarıda adları göstərilən şairlərin xidmətləri danılmazdır. Aşağıda səsləndirdiyimiz fikir bir qədər mübahisəli, subyektiv görünə bilər. Fikrimizcə, Süleyman Rüstəm qədər cənub mövzusuna dərindən nüfuz edən ikinci bir şair olmamışdır. Maraqlıdır ki, Süleyman Rüstəm cənublu soydaşlarımızın bugünkü problemlərini təsvir eləməklə kifayətlənmir. Şairin qənaətinə görə cənublu qardaş və bacılarımızın problemlərinin əksəriyyəti keçmişlə bağlıdır. Lakin Azərbaycan xalqının şanlı keçmişini tənqid etməklə, “atəşə tutmaqla” kifayələnmir. Şair həm də çıxış yolunu göstərir. Səttar xanları, Bağır xanları, Şeyx Məhəmməd Xiyabaniləri, Səhəndləri, Məhəmməd-hüseyn Şəhriyarları olan xalq uzun müddət əsarət altında qala bilməz. Mübarizə əsarətdən qurtulmaq üçün yeganə çıxış yoludur. Süleyman Rüstəmin “12-ci tüfəng” poemasında yazdığı kimi:

Zəncirləri qırmaq, o böyük haqq yolu tapmaq,
Üsyanladır, üsyanladır, üsyanladır, ancaq (8, s.190).

Yuxarıda göstərdiyimiz kimi Süleyman Rüstəm 1941-ci ildə Sovet ordusunun tərkibində İranda, Cənubi Azərbaycanda olarkən Vətən torpağına, şəhərləri, kəndləri qarış-qarış gəzmiş, ən müxtəlif təbəqələri təmsil edən insanlarla görüşmüşdür. Onlar Süleyman Rüstəm və onun digər yoldaşlarının hər gəlişini səbirsizliklə gözləyir, çıxışlarını gurultulu alqışlarla qarşılayırdılar. Xüsusilə də sadə insanlarda gələcək mübarizəyə böyük inam hiss olunurdu.

Ümumiyyətlə, Süleyman Rüstəm üçün cənub mövzusu həmişə aktual olaraq qalmışdır. Şair daim rus şairi Puşkinin sözləri ilə desək, ən qəddar, ağır illərdə belə azadlıq, müstəqillik ideyalarını təbliğ etmişdir. Şair XX əsrin 30-cu illərindəm başlayaraq – 89-cu ilə kimi ömrünün sonuna qədər cənublu qardaş-bacılarımızın saysız-hesabsız dərdlərini, problemlərini bpyük mənada götürsək, bütün dünyanın diqqətinə çatdırmışdır. 30 milyonluq bir xalqın-azərbaycanlıların ana dilində orta məktəbi belə yoxdur. Süleyman Rüstəm son dərəcə lirik və üsyankar şairdir. Cənub mövzusu həm də XX əsr Azərbaycan ədəbiyyatında siyasi lirikanın ən gözəl nümunəsidir. Süleyman Rüstəmin ən siyasi şeirlərində dərin lirizm hiss olunur. Bu mənada təkcə “Təbrizim” şeirini yada salmaq kifayətdir. Mübaligəsiz demək olar ki, “Təbrizim” şeiri Süleyman Rüstəmin cənub lirikasının ümumən Azərbaycan ədəbiyyatında cənub lirikasının zirvəsi hesab olunur. Doğurdan da, şeirdə cənublu soydaşlarımızın elə bir problemi olmamışdır ki, şairin nəzər-diqqətindən kənarda qalsın... Süleyman Rüstəm cənub mövzusunda yazılmış şeirlərdən başqa XX əsrin 70-80-ci illərində silsilə xatirələrini də yazmışdır. Həmin xatirələri şairin cənub lirikasının davamı hesab etmək olar. Həm poeziyada, həm də nəsrdə Süleyman Rüstəm üçün cənub mövzusu aktual olaraq qalmışdır. Müasir dövrümüzdə və keçmişdə dünyada müxtəlif səbəblər ucbatından çoxlu ikiyə bölünmüş dğvlətlər, xalqlar mövcuddur. Onların problemləri haqqında müxtəlif Beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də müəyyən məlumatlar vardır. Nə vaxtsa onların birləşə biləcəyi bildirilir. Coxları ikiyə bölünmüş Azərbaycan haqqında tamamilə xəbərsizdirlər. Bu bir daha cənub mövzusunun aktuallığına dəlalət edir. Hər bir şairin yazıçının dramaturgiyası ümumiyyətlə, ədəbiyyatın əbədi mövzuları vardır. Süleyman Rüstəm üçün çoxlu əbədi mövzular silsiləsi mövcuddur. Onlardan ən birincisi və başlıcası cənub mövzusudur. Süleyman Rüstəm, özünü bu mövzu qarşısında həmişə borclu hesab edirdi. Halbuki Süleyman Rüstəm qədər cənub mövzusuna müraciət edən, cənublu bacı-qardaşlarımızın dərdlərini, problemlərini təsvir edən ikinci bir şair yoxdur. “Köçən deyiləm” şeirində şair bunu bir daha vurğulayır:

Qoy əcəl bilsin ki, vəslin bağından,
Gül-çiçək dərməmiş keçən deyiləm.
O taylı dilbəri özümtək azad,
Bəxtiyar görməmiş köçən deyiləm.
Sinəmdə bir dərya sözüm var yenə,
Olümdən, əcəldən deməyin mənə.
Süleyman Rüstəməm, xalqa, Vətənə
Borcumu verməmiş köçən deyiləm! (8, s.13)

Süleyman Rüstəm Cənubi Azərbaycanı güllü-çiçəkli bağa, Gülüstani-irəmə bənzədir. O taylı dilbəri, insanları azad, xoşbəxt, bəxtiyar görmək istəyir. Bu yolda heç nə, heç kim şairi yolundan döndərə bilməz, qorxuda bilməz. Şairin cənublu qardaş-bacılarımıza deyiləsi, söylənəsi çoxlu sözü vardır. Ona möhləvi soydaşlarımıza xidmətdə, qayğıda, onların "Öz gülüstanını" şeirində Vətənə məhəbbətini bir qədər fərqli şəkildə bildirir. Yəni, Vətənin maddi və mənəvi sərvətləri kifayət qədərdir. Onun başqalarının torpağında, sərvətində gözü yoxdur.

Özgə torpağına göz dikməmişəm,
Mənə kifayətdir öz gülüstanım.
Yolunda hazıram candan keçməyə
Vətəndir, Vətəndir şöhrətim, şanım.
Qardaş, xəbərdaram güzəranından,
Gülləri yad dərən gülüstanından.
Canım canındandır, qanım qanından,
Yox, dözə bilməyir buna vicdanım.
Qəm-qüssə çəkməzdim bəlkə də bunca,
Təbrizi görsəydim bir də doyunca.
Vüsal həsrətilə Araz boyunca,
Yolları yollara yamayan canım! (8, s.13)

Süleyman Rüstəm Vətəni ilə haqlı olaraq fəxr edir, onun hər qarış torpağını tərənnüm edir, sevir, əzizləyir. Obrazlı şəkildə desək, ana kimi layla çalır. Şair üçün Vətən birdir, bölünməzdir. Elin aşağısı, yuxarısı olmaz deyiblər. Süleyman Rüstəm cənublu qardaş-bacılarımızdan söz açanda şimallı, şimallı qardaş-bacılarımızdan söz açanda isə cənubluları düşünür. Və sözün yaxşı mənasında təəccüb olunacaq şəkildə, dərəcədə tamlıq, bütövlük yarada bilir. Fikrimizcə, başqa cür ola da bilməzdi. Vətən, torpaq, millət haqqında ürəkdən yazan şairin səmimilikdən ssavayı çıxış yolu qalmır. Süleyman Rüstəm ömrü böyu doğru, düzgün, həqiqəti yazmışdır. Hansı mövzuya müraciət etməsindən asılı olmayaraq... Çünki şair başqalarının torpağına göz dikməmişdir, ona öz gülüstanı kifayət edir. Vətənin azadlığı yolunda həmişə canından keçməyə hazırdırsa şair qələmini süngüyə çevirmək düşmənlərin bağrını dəlir. Həm də şairin şöhrəti, şani cənublu-şimallı Azərbaycan adlı böyük, müqəddəs Vətəndir! Süleyman Rüstəm Vətənin, xüsusilə də Cənubi Azərbaycanın dərdlərindən yaxşı xəbərdardır. "Qardaş xəbərdaram güzəranından" sözləri nahaqdan deyilməmişdir. Əlbəttə, burada daha çox sadə insanların yaşayışı, günü-güzaranı nəzərdə tutulur.

"Gülləri yad dərən gülüstanından" misralarında isə böyük siyasi həqiqətlər, Beynəlxalq mövzular "gizlənmişdir". Gülüstan deyəndə həm də təbii sərvətlər nəzərdə tutulur. Xarici qüvvələr Cənubi Azərbaycanın təbii sərvətlərini talan edirlər, əhalini siyasi, iqtisadi təzyiq altında saxlayırlar. Cənubi Azərbaycanın əhalisi ən adi siyasi hüquqlardan, imtiyazlardan məhrumdurlar. Təbii ki, "canı canından, qanı qanından" olan vətənpərvər, vicdanlı şairin bütün bunlara dözməyə mənəvi haqqı yoxdur. Bir faktı qeyd etmək lazımdır ki, "Öz gülüstanım" şeirindən başlayaraq şairin lirikasında azadlıq uğrunda mübarizə oyanmağa yönələn çağırışlarla bərabər, nisgilli, vüsal

həsrətli motivlər də üstünlük təşkil etməyə başlayır. İlk gənclik illərində Təbrizi görən şair yenə̇n Təbrizə, cənublu qardaş-bacılarının yanına dönmək həsrəti, ümidi ilə yaşayır. Şair əsas məqsədinə çatmaq üçün ən sərt ifadələr işlətməkdən belə çəkinmir. Araz boyunca şairin arzularının yanına dönmək həsrəti, ümidi ilə yaşayır. Şair əsas məqsədinə çatmaq üçün ən sərt ifadələr işlətməkdən belə çəkinmir. Araz boyunca şairin arzularına tikanlı məftillərdən sipər çəkən, dilsiz-ağızsız, günahsız yollara yamaq vurmaq istəyir. Onları “cəzalandırmaq” fikrindən əl çəkmir. Digər tərəfdən “yollara yamaq vurmaq” ifadəsi Süleyman Rüstəmin poetik tapıntılarından biridir. “Vüsal həsrəti” şeirində də yuxarıda göstərilən motivlər üstünlük təşkil edir:

Vüsal həsrətilə yanıram yenə,
Yoxdur əzəl gündən hicranla aram.
Şerimlə, mahnımla çəkərək nərə,
Hicran cəbhəsini mən gərək yaram.
Ey nisgilli bacım, dərdli qardaşım,
Savalan sayağı ağardı başım.
Bu tayda gülşəndir torpağım, daşım,
Sizsiz ola bilməz ürəyim aram.
Qəflətdən oyanmış görürəm sizi,
Dağ kimi dayanmış görürəm sizi,
Al qana boyanmış görürəm sizi,
Dərdiniz dərdimdir, yaranız yaram.
Halı cəlladların yamandır, yaman,
Yoxalır köləlik, dəyişir zaman.
Süleyman Rüstəməm, eşitsin cahan:
Sizə havadaram nə qədər varam! (8, s.14)

“Deyilmi” şeirində sanki mübarizədən utanır, tikanlı məftilləri kəcib soydaşlarımıza kömək edə bilmədiyinə təəssüflənir. Çıxış yolunu göydə uçan durnalara müraciət etməkdə görür.

Bu bağda gülşəndir torpağım, dağım,
Sizsiz ola bilməz ürəyim aranı,
Qəflətdən oyanmış görürəm sizi,
Al qana boyanmış görürəm sizi
Dərdimiz dərdimdir, yaranız yaram (8, s.14).

Süleyman Rüstəmin nisgilli, vüsal həsrətli şeirlərində də etiraz, üsyankarlıq motivləri vardır. Şairin hicranla arası yoxdur. Cənubi Azərbaycanda yaşayan bacı-qardaşlarımızın azad olduğu günü səbirsizliklə gözləyir. Şair müdafiə olunmağı yox, hücuma keçməəyi düşünür. Qələmini süngüyə çevirərək qəhrəman əsgər kimi düşmənlərlə döyüşə atılır. Süleyman Rüstəm bir neçə misrada müxtəlif fikirlər söyləyir, kəskin təzadlar yaradır. Birinci misrada şairi sevindirən məqamlar mövcuddur. Cənublu soydaşlarımızın qəflət yuxusundan oyanması, öz hüquqları uğrunda mübarizəyə başlamaları şairi sevindiyməyə bilməzdi. Artıq soydaşlarımız Savalan dağı kimi dayanıblar., təslim olmaq fikrində deyillər, mübarizəni özləri üçün həyat idealına, amalına çeviriblər. Eyni zamanda Süleyman Rüstəm yaxşı bilir ki, azadlıq qansız-qadasız mümkün olmur. Azadlıq uğrunda qurbanlar verilir. Ona görə də, Süleyman Rüstəm azadlıq mübarizələrini “al qana boyanmış görür”, onlara dərdlərini “özünküləşdirir”. “Dərdimiz dərdimdir, yaranız yaram” deyir. Birgə mübarizənin nəticəsində “cəlladların halı yaman olacaqdır”.

Beləliklə, Süleyman Rüstəmin cənub lirikasında qaldırılan problemlər bu gün də aktuallığını itirməmişdir.

***Ədəbiyyat***

1. Anar. Süleyman Rüstəm. – Azərbaycan, 2016. №5, s.27
2. Əlimirzəyev X. Klassiklərimizin ideal və poetik sənət dünyası. Bakı, 2009.242 s.
3. Əliyev X. Sadəlikdə böyüklük. Süleyman Rüstəm. – Ədəbiyyat 1997, 11 iyul, s2-3.
4. Əsgərzadə Q. Sonsuzdur Vətən sevgisi. – Ədəbiyyat, 2021, 2 oktyabr. 22 s.
5. Əsgərzadə Q. Süleyman R. misralarında Qarabağ sevgisi. 525-ci qəzet, 2021,12 avqust, №9.
6. Qarayev Y. Realizm: Sənət və həqiqət. Bakı, Yazıçı. 1980, 220 s.
7. Rüstəm S. Seçilmiş əsərləri. 3 cilddə. II cild. Bakı, “Şərq-Qərb”, 2005, 320 s.
8. Rüstəm S.Cənub şeirləri. Bakı. “Şərq-Qərb”, 2005. 318 s.

## ЮЖНАЯ ТЕМАТИКА В ТВОРЧЕСТВЕ СУЛЕЙМАНА РУСТАМА

***Бунядова Вафа Шахзада кызы***

***Резюме***

Творчество Сулеймана Рустама занимает важное место не только в поэзии, но и в азербайджанской литературе XX века. Поэт вместе с другими стоял у истоков новой азербайджанской поэзии. Одновременно Сулейман Рустам продолжал и развивал лучшие традиции классиков азербайджанской литературы, в частности, поэзии XIX века. Сулейман Рустам пришёл в литературу в начале XX века и тогда же начиналась его бурная поэтическая деятельность. В 30-е годы в творчестве Сулеймана Рустама преобладали патриотические темы, в особенности, южная тематика. В 1941-ом году поэт в составе Советской армии находился на территории Южного Азербайджана. Побывал во многих областях, в городах Тебриза и Тегерана. Близко познакомился с населением Южного Азербайджана. Был свидетелем тяжёлого положения простого народа. Написал много стихотворений. Но вершиной является его стихотворение «Табризим». Поэт называет жителей Табриза своими родными братьями и сёстрами. В статье анализируются вышеназванные проблемы.

## SOUTHERN THEME IN SULEYMAN RUSTAM'S WORK

***Bunyadova Vafa Shaxzade***

***Summary***

Suleyman Rustam's creativity constitutes an important stage not only in XX century Azerbaijani poetry, but also in prose. The poet, along with others, became one of the creators of the new Azerbaijani poetry. At the same time, Suleyman Rustam continued and developed the best traditions of the classics of Azerbaijani literature. The poet came to literature at the beginning of the 20th century. In the 30s of the 20th century, in addition to revolutionary themes, Süleyman Rustam's work began to include patriotis and southern themes. In 1941, he visited Iran as part of the Soviet Army. He was in the cities of Tabriz, Tehran and many provinces. He becomes familiar with the situation of the population of South Azerbaijan. He writes many poems and poetries dedicated to the many problems of our southern compatriots. However, the poem "Tabrizim" is the peak of S. Rustam's southern lyrics. In his appeal to the residents of Tabriz, the poet calls them his native brothers and sisters. In the article, the above mentioned points are included in the analysis.

***Rəyçi: dos. Fərrux Məmməd oğlu Məmmədov***

***Azərbaycan Memarlıq və inşaat Universitetinin Əcnəbi dillər kafedrasının 23 noyabr 2022-ci il tarixli iclasın 3 nömrəli protokolu***

***Daxil olduğu tarix 30 noyabr 2022-ci il***